# ANA İZTİRABLARI...

## *Fatma Həsənqızının “Acılı-şirinli günlər” kitabında*

Bir insan övladını böyütmək, boya-başa çatdırmaq əslində onu böyüdənin öz ömrünü körpəyə bağışlamasıdır. Uşağı dünyaya gətirən ana onu böyütmək üçün min bir əzab-əziyyətə dözməli olur. Həyatın acılıqlarını özü ruhuna çəkir, ağrılarını canına yığır. Ancaq övladına öz canından, ruhundan pay ayırır, öz südü ilə övladını böyüdür. Nə qədər əzab-əziyyət çəkirsə, çəksin dəxli yoxdur. Hər bir ana zillətlə böyütdüyü övladının boyuna baxıb qürurlanır. Sanki ömrünün övladında təzədən yaşamağından fərəh duyur. Şübhəsiz, taleyini övladına vermiş ana ömrü qədər şərəfli heç nə yoxdur.

Yazıçı Fatma Həsənqızının “Acılı-şirinli günlər” sənədli romanının baş qəhrəmanı - əsas obrazı kimi gördüyümüz Nəsibə ana yaddaşlarda şərəfli həyatı ilə iz qoyub. Əslində elə müəllif də Nəsibə ana obrazı ilə bir möhtəşəm ana təbiəti qarşısında onun böyük hünəri qarşısında öz etirafını qəlbinin səsi ilə yazıb. Sanki müəllif özü də Nəsibə ananın iztirablarını yaza-yaza özü öz varlığında bu iztirabları yaşayıb. Zənnimizcə obrazın həyata daha çox yaxın olmasının bir səbəbi də budur. Müəlliflə həyat arasında canlı körpü olan Nəsibə ananın həyat romanı elə ilk səhifələrindən kədərlə süslənib.

Ötən əsrin lap əvvəllərində Cənub bölgəsində baş verən hadisələr sadə adamların hər birinin həyatında iz buraxıb. Erməni quldurları çar jandarmları, sonra da bolşeviklər dəfələrlə bu ərazilərə yürüş edərək əhalini talan ediblər, yandırıblar, dağıdıblar. Etiraz etmək istəyən, qabağa duran hər kəsi qılıncdan keçiriblər, gülləyə hədər ediblər. Belə qurbanlardan biri də Cənub bölgəsinin sadə bir kəndlisi olan Abuzər kişi idi. Beləliklə, gənc ailə başsız qalır. Dürsədəf ana öz qızını da götürərək qaynının evində daldalanır. Fatma Həsənqızının romanından aldığımız bu məlumat əsasında Nəsibə ananın taleyinə çökmüş olan qara günlərin ilk rənglərini artıq görməkdəyik. Nəsibənin əmisi qardaşının yadigarına nə qədər yaxşı baxsa da, atasızlıq, sahibsizlik duyğusu Nəsibəni və anasını qarabaqara izləyirdi.

Sonra iş elə gətirdi ki, hələ Nəsibə iki yaşında olarkən əmisi də vəfat etdi. Dörd uşaqla Dürsədəf ana taleyin ümidinə qalmışdı.

O, səhərdən axşamacan çalışır, işləyir. Balalarını böyütməyin əzablarını yaşayırdı.

Zaman isə heç nəyə baxmır, sürətlə ötüb keçirdi. Nəsibə 14 yaşını keçəndə gənc oğlanların diqqətini cəlb etmişdi. Bu abırlı, həyalı, gözəl kənd qızını ilk sevən Hüseyn kişinin oğlu Muğdat oldu. Nəsibə də Muğdatın qoçaq, fəhmli, cəsarətli oğlan olduğunu görürdü. Beləliklə, onların könül dünyasında sevgi çiçəkləri açıldı. Gənclər evləndilər. Muğdat Nəsibəni razılığı ilə qaçırmışdı. Amma Nəsibə sonralar da hərdən bəxtindən gileylənmək məqamı gələndə ailə həyatının toysuz qurulmağına həmişə təəssüflənirdi.

Artıq qeyd etdiyimiz kimi zaman təzə hava ilə çarxalanmaqda idi. Çoxlarının düşündüyü kimi bolşeviklər xoşbəxtlik gətirməmişdilər. Onlar nəinki insanların şəxsi əmlaklarını talayır, hətta özlərini də güllələnmə cəzasına məruz qoyur. Ən yaxşı halda uzaq Sibir çöllərinə sürgünə göndərirdilər. Belə bir taley Nəsibənin də mənsub olduğu ailənin qapısını döydü.

Nəsibənin qayınatası Hüseyn kişini həbs etdilər. Onun var-dövlətini, bütün əmlakını əlindən aldılar. Kişini həbs edib həyətindən aparanlara Muğdat qabağa yeriyib atamın əvəzinə məni aparın desə də onunla razılaşmadılar. Amma Muğdat da atasından ayrılmadı. İndi gəlin belə bir məqamda gənc Muğdatın arvadı gənc Nəsibənin keçirdiyi hissləri gözlərimizin önünə gətirək. indiyə qədər bir yad adamın qabağında yaşmağını aşağı salıb bir kəlmə danışmayan Nəsibə bolşevik milislərinin qabağına yeriyib öz etirazlarını bildirdi. Onların haqsızlıqlarını üzlərinə vurdu. F.Həsənqızının qeyd etdiyi kimi bu mənzərə çox dəhşətli idi. Böyük ailəni dolandıran iki kişini hökümət haqsız olaraq apardı. Ancaq Muğdat arvadına sakit olmağı, kənara çəkilməyi deyirdi. Ona təskinlik verərək tezliklə qayıdacağını deyirdi. Bu səhnəni F.Həsənqızı bütün reallığı ilə təqdim edə bilir: “Muğdat him-cimlə Nəsibənin kənara çəkilməsinə işarə etdi. Nəsibə Muğdatın sözündən heç vaxt çıxmırdı. Susdu. Sakitcə kənara çəkildi. Yanıqlı halda hönkür-hönkür ağlamağa başladı. Hüseyn kişinin rəngi bərk tutulmuşdu. Lakin özünü ələ alıb, mərdanəliklə Muğdata dedi: -Ay oğul, özünü bəlaya salma. Onların məqsədi məni tutmaqdır. Çəkil kənara, nə cəza versələr, özüm çəkməliyəm”. Beləcə gənc ananın iztirabları özünün ən dözülməz həddinə çatır. Belə məqamlarda o sanki taleyə, bəxtə üz tutub etirazını bildirir. Səsinin Allaha çatmamağından öz dərdini öz içində ağlayırdı.



Şəddatın atası
Muğdat Cəfərov



Şəddatın anası
Nəsibə xanım Cəfərova

Bəs belə bir ailəni həmin dövrdə xilas edən hansı güc idi? Şübhəsiz, belə bir güc bu ailəni birləşdirən, bu ailənin birliyini qoruyan sədaqət hissi ola bilərdi. Nəsibə ərinə sədaqətli idi. Qayınanası Ağabanunu özünün anası bilirdi. Qayınatasının adını pir kimi, övliya kimi çəkirdi. Bütün bunlar bu ailənin mənəvi güc mənbəyi idi. Hüseyn kişi tutulub gedəndən sonra Muğdat sürgündə olanda Nəsibə və qaynanası baş-başa verir. balaca Xudadatı da gələn aclıqdan xilas etmək üçün bütün gücləri ilə çalışıb işləyirdilər.

Hər yerdə rəhmdil insanlar olduğu kimi, qəddar olanlar da var. Belələri ailəni rahat buraxmırdı. Təqib edir, müxtəlif bəhanələrlə onları xalq düşməninin ailəsi kimi tanıdırdılar. Axır ki, bu təqiblərdən yaxa qurtarmaq üçün Muğdat sürgündən qayıdan kimi onlar baş götürüb Bakıya yollandılar. Doğrudur, onlara İrana keçməyi də məsləhət görürdülər. Amma ailədə heç kim Vətəndən ayrılmaq fikri ilə razılaşmamışdı. Bakıda ilk çətinliklər arxada qalır. Muğdat Neft mədənində işləməli olur. Beləliklə, həyat Bakıda yenidən axarına düşür. Ailənin yeni övladları doğulur. Bakının yaxın kəndlərindən birindəki ağır həyat şəraitini bir neçə ildən sonra şəhərin Qoqol küçəsindəki mənzillə dəyişirlər. İndi mənzil şəraiti Bülbülədəkindən nisbətən yaxşı idi. Beləliklə, bu dəfə də ailənin nisbətən axarına düşmüş həyatına yeni acılığı müharibə gətirir; alman faşistləri ilə müharibə.

Muğdat müharibəyə yollanır. Bu ayrılığın da acı mənzərəsi bu günün oxucusunda dərin təəssürat oyadır: “Hər şey yaxşı idi. Muğdat və Nəsibə xoşbəxt idilər. Lakin 1941-ci il alman-faşist işğalçılarının ölkəmizə gözlənilməz hücumu yenidən gənc ailənin həyatında amansız dəyişikliklər yaratdı. Bu vaxt Şəddat bərk xəstələnmişdi. Xəstəxanada müalicə olunurdu. Nəsibə Şəddatın yanında qalırdı. Müharibənin başlanması xəbəri dərhal bütün xəstəxanaya yayılmışdı. Hamı kimi Nəsibə də bərk narahat idi. Elə bu vaxt Muğdat palataya girdi. -Yığış, uşağı evə aparmağa gəlmişəm.

Nəsibə nə isə demək istədi. Muğdat onun sözünü kəsdi:-Həkimlə danışmışam. Deyir ki, uşağın vəziyyəti lap yaxşıdır. Tələs, həyətdə fayton bizi gözləyir. Heç olmasa bir gecə sizinlə gecələyim. Hərbi komissar çağırıb. Səhər yola düşürəm.

Nəsibə özünü saxlaya bilmədi. Bayaqdan sinəsində tüğyan edən həyəcan. Qorxu və müharibə sözünün vahiməsi, indi də Muğdatdan ayrılacağı xəbərini eşidəndə dözə bilmədi. Şəddatı sinəsinə basıb hönkür-hönkür ağladı. Balaca Şəddat əvvəl maddım-maddım Nəsibəyə baxdı, sonra kiçik barmağı ilə onun göz yaşlarını silərək dedi: - Ana, ağlama, mən daha yaxşıyam. Heç yerim ağrımır. Gedək evimizə, - balaca uşağın dedikləri istər-istəməz gənc atada ağır təəssürat yaratdı. Təskinlik üçün dilləndi: -Hə, mənim balam. Daha yaxşısan. Gəlmişəm ki, səni evə aparam, qardaşların səni gözləyir, - deyə Muğdat Şəddatın üzündən öpdü. - Hara getsəm də sağ-salamat qayıdacağam”. Bir ailənin taleyini əks etdirən mükalimələr, danışıqlar bizi təzədən çəkib görmədiyimiz o illərə aparır. Biz burada nəinki atanın, nəinki ananın, hətta balaca uşağın da iradəsinin sınağa çəkildiyini görürük. Hər bir əsər həyat həqiqətləri haqqında şahiddir. Zamanı göstərən şahid, insanların nəyə qadir olduğunu göstərən şahid. Həyat göstərir ki, sınaqlardan məğrurluqla çıxan insanlar sonralar cəmiyyətin mənəvi harmoniyasını yarada bilirlər. Hər halda balaca Şəddatın taleyindən keçən müharibə acılığı sonrakı zamanların xatirələri ilə qovuşaraq onun üçün dərsə, məktəbə çevrilmişdi.

Nəsibə ana isə yenidən ağır iztirabları yaşamaqda idi. Onun doğmaları odun-alovun içində idi. Özü isə balaları ilə baş-başa qalmışdı: “...Müharibənin lap ilk günlərində Nəsibə xanım daha bir əzizinin həsrətini - müharibənin özü ağırlığında olan dərd-qəmi ürəyində daşımalı olur. Qardaşı Murad Lənkəranın Gərmətük kəndindən orduya çağırılanda Bakıda bircə gecə Muğdatgildə qalmağa vaxt tapır, qanlı döyüşlərə, od-alovun içinə yola düşən qardaşı ilə heç doyunca söhbət edə bilməyən bacı səhəri gün onu da cəbhəyə yola salır”. Hər halda insanlar çətinliklərə məruz qalanda daha inadla çıxış yolları axtarırlar. Çünki, yaxşı bilirlər ki, əgər çıxış yolunu tapmasalar, həyat onları bəla girdabına salacaq, məhv edəcək.

Nəsibə isə bunu artıq öz həyatında görmüşdü. O yaxşı bilirdi ki, çətinliklərə sinə gərməklə balalarını xilas edə bilər. Ona görə də tezliklə işə düzəldi. Heç olmasa ona verilən çörək talonu ilə uşaqları aclıqdan qoruya bilərdi.

Nəsibə ananın həyatında ürək dağlayan mənzərələr çoxdu. Çörək talonunu itirməsi ilə bağlı hekayət isə ən daşürəkli insanı da kövrəldir. Onu keçmişin acılıqları haqqında düşünməyə vadar edir. Bu günün insanı hər halda Qarabağ müharibəsini görüb. Yerindən, yurdundan didərgin olmağın, vaqonlarda, çadırlarda yaşamağın nə demək olduğu haqda məlumatlıdır. Amma hər halda belə acı taleyi Azərbaycan xalqı İkinci Cahan dövründə də yaşamışdı. İndi həmin ürək dağlayan hekayətdən bir parçaya diqqət edək: “Nəsibə elə müharibənin səhərisi günü uşaqları dolandırmaq üçün tikiş fabrikində işə düzəldi. Dünyaya gözünü açan gündən bəri onsuz da xoş gün az görən gənc qadının ağır günləri bir-birinə calanırdı. Bu ağır günlərin birində Hüseyn kişi vəfat etdi. Bir il idi ki, müharibə başlanmışdı. Artıq Bakıda ərzaq qıtlığı və bahaçılıq başlanmışdı. Nəsibənin qazandığı pul ailəni dolandırmaq üçün kifayət etmirdi. Ərzaq ehtiyyatı gündən-günə azalırdı. Nəsibənin qəlbindən qara qanlar axırdı. Bir gün o, işdən qayıdanda yolunu həmişəki kimi çörək mağazasından saldı. Əlini cibinə apardı ki, çörək talonunu çıxartsın, quruyub qaldı. Talon cibində yox idi. Ürəyi sıxıldı:-İlahi, bu nə oyundur başıma gəlib? Körpə balalarıma rəhmin gəlmirmi?”. Ananın təkcə elə sual dolu bu düşüncələri insanın varlığına soyuq xəncər kimi daxil olur. Ana sanki Allahın altında öz iztirabları ilə tək-tənha olduğunu görür, ancaq bunun nə üçün baş verdiyini sanki anlaya bilmir. Hər halda acizlik heç nəyi həll etmir. Buna baxmayaraq çörəyin yanında çörəksizliyin faciəsi rəssam lövhəsi kimi uzun müddət yaddan çıxmır: “Mağazada hamı çörək talonunu ovcunda möhkəm-möhkəm sıxıb çörək gözləyirdi. Nəsibə bir qədər beləcə durdu. Gözlərindən gildir-gildir yaş axmağa başladı. Onu tanıyan məhəllə adamları dərhal başına toplaşdılar. Məsələnin nə yerdə olduğunu biləndən sonra çarəsiz qalaraq ah çəkib Nəsibənin halına acıdılar. O, kor-peşman mağazadan çıxdı. Yaxınlıqdakı evinə tərəf addımlamağa başladı. Lakin ayaqları irəli getmirdi: “Əliboş hara gedirsən, ay Nəsibə? Axı, balaların evdə çörək gözləyir”. Nəsibə balalarının gözünə necə görünəcəkdi, nə deyəcəkdi? Ürəyi qubarlamışdı. Az qalırdı ki, partlasın. O, sıxıla-sıxıla evə gəldi”. Dörd uşağın ac gözlərinə baxmaq dəhşət idi.

Bütün bunlar Nəsibə ananın iztirablar hekayətidir. Və eyni zamanda bir ananın qəhrəmanlıq dastanıdır. Nəsibə balalarını ağır zamandan öz iradəsi, mətinliyi ilə keçirə bilir. İztirablar önündə sınmır, əyilmir. Müharibədən qayıdan əri Muğdatı açıq alnla qarşılayır. Belə anaların xatirəsi önündə hər birimiz baş əyməyə borcluyuq...

***Ə.R.XƏLƏFLİ***
***C.ZALLI***
***26.04.2021***